**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
İQTİSADİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**FƏTƏLİYEVA AYGÜN XEYRULLA QIZI**

# "XX ƏSRİN 80-90-CI İLLƏRİNDƏ AZƏRBAYCANDA İQTİSADİ FİKRİN İNKİŞAFI"

**İxtisas: 5307.01 – İqtisadi nəzəriyyə**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

## A V T O R E F E R A T I

**BAKI – 2017**

Dissertasiya işi Azərbaycan MEA-nın İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** i.e.d.,prof. **G.Z.Yüzbaşıyeva**

**Rəsmi opponentlər:** AMEA-nın Azad Həmkarlar İttifaqının Sədri, i.e.d. prof. **İ.H.Alıyev**

BDU–nun "Dünya iqtisadiyyatı" kafedrasının dosenti **H.H.Aslanov**

**Aparıcı təşkilat:** Bakı Dövlət Universitetinin "İqtisadiyyat və idarəetmə" kafedrası

Müdafiə 30 iyun 2017-ci il saat $16^{00}$-da AMEA İqtisadiyyat İnstitutunda fəaliyyət göstərən D.01.181 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ. 1143, Bakı şəhəri, H.Cavid prospekti 115, AMEA İqtisadiyyat İnstitutu.

Dissertasiya işi ilə AMEA-nın Mərkəzi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat 26 may 2017-ci ildə göndərilmişdir.

D.01.181 Dissertasiya Şurasının elmi katibi,
iqtisad üzrə fəlsəfə doktoru **S.T.Şixəliyeva**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Elmi fikir, o cümlədən iqtisadi fikir ideyaların tarixi hadisə və proseslər kontekstində sadəcə iqtisadi ədəbiyyatlarda əks olunması kimi başa düşülməməlidir. Araşdırmalara eyni zamanda dövrün xüsusiyyətlərinə müvafiq əsas ideyaların məzmununun təhlili də daxil edilməlidir. Bu baxımdan qeyd etmək lazımdır ki, tədqiq edilən dövr və araşdırılan illər ərzində Azərbaycan iqtisadi fikrinin inkişaf xüsusiyyətləri və istiqamətlərinin öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Nəzərə almaq lazımdır ki, XX əsrin 80-90-ci illərində Sovet dövlətinin süqutu və müvafiq olaraq onun ərazisində müstəqil dövlətlərin yaranması kimi tarixi əhəmiyyət daşıyan hadisələr baş verdi, milli düşüncə və ideyaların yenidən inkişaf etməsinə münbit zəmin yarandı. Belə bir şəraitdə iqtisadi fikrin, o cümlədən bütünlükdə iqtisad elminin baş verən hadisə və proseslər kontekstində inkişaf xüsusiyyətləri ciddi araşdırma obyekti kimi seçilməlidir. Çünki iqtisadi fikir özlüyündə milli ideologiya və düşüncə tərzinin əhəmiyyətli elementlərindən biri kimi ictimai təfəkkürü müstəqillik ideyalarına istiqamətləndirən əsas ideya qaynaqlarından biridir. Eyni zamanda milli iqtisadi fikir qarşısında Sovet dövründən miras qalmış çoxsaylı nəzəri və praktiki məzmun daşıyan problemlərin həlli vəzifəsi dayanırdı. Konkret olaraq tarixi hadisələrin gedişatı nəticəsində qeyd etmək olar ki, 80-ci illərin ikinci yarısından başlayaraq iqtisadi durğunluq sonradan 90-cı illərin birinci yarısına kimi iqtisadi tənəzzül ilə əvəz olundu. Məlum həqiqətlərdir ki, Azərbaycan iqtisad elmi, o cümlədən iqtisadi fikrinin əsas amalı öncə respublikanın iqtisadi tənəzzüldən çıxarılması, daha sonra iqtisadi sabitliyin əldə olunması və dayanıqlı iqtisadi inkişafın təmin olunması istiqamətində köklənmişdi. Lakin bu vəzifələrin həyata keçirilməsi praktiki vəzifələrin həlli ilə yanaşı, bir sıra nəzəri-metodoloji məsələlərin kökündən həll edilməsini tələb edirdi.

Məlumdur ki, XX əsrin 80-90-cı illərdə sonlarına kimi əsas məzmununu marksist düşüncə tərzi təşkil edən Sovet iqtisadi nəzəriyyəsi bütün postsovet məkanında olduğu kimi, Azərbaycan iqtisadi fikrində də hegemonluq edirdi. Lakin milli oyanışın vüsətləndiyi, müstəqilliyin əldə olunduğu şəraitdə iqtisadi hadisə və proseslərin hansı meyarlarla, nəzəri yanaşmalarla qiymətləndirilməsi məsələsinin həlli təxirəsalınmaz vəzifələrdən biri kimi iqtisad elmi qarşısında dururdu. Bütün bunlar deməyə əsas verir ki, olduqca mürəkkəb bir tarixi dövr ərzində Azərbaycan iqtisadi fikrinin inkişaf xüsusiyyətlərinin araşdırılması aktuallıq kəsb edir.

**Problemin öyrənilmə səviyyəsi.** XX əsrin 80-90-cı illərində Azərbaycan iqtisadiyyatının çox saylı nəzəri və praktiki məzmun daşıyan problemləri respublikanın görkəmli iqtisadçı alimləri Ə.Ə.Mahmudov, Ə.S.Sumbatzadə, A.K.Ələskərov, A.A.Nadirov, Ş.M.Muradov, M.M.Allahverdiyev, Z.Ə.Səmədzadə, T.S.Vəliyev, A.A.Ağayeva, Ə.A.Zərgərov, Q.Y.Əbdülsəlimzadə, N.A.Nəbiyev, Ə.X.Nuriyev, H.R.Şirinov, S.H.Haqverdiyeva, A.Ə.Əliyev, Ə.H.Axundov, M.Ə.Musayev, T.Ə.Quliyev, R.İ.Quliyev və b. tərəfindən araşdırılmışdır. Adı çəkilən iqtisadçıların böyük əksəriyyətinin iqtisadi irsi ayrı-ayrılıqda tədqiq olunsa da bütövlükdə Azərbaycan iqtisad elmi və xüsusən də Azərbaycan iqtisadi fikrinin bu dövrdə inkişaf xüsusiyyətləri, əsas istiqamətləri xüsusi tədqiqat obyekti kimi seçilməmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi XX əsrin 80-cı illərinin sonu - 90-cı illərinin əvvəllərində Azərbaycan iqtisad elminin görkəmli nümayəndələrinin xalq təsərrüfatının bu və ya digər problemlərinin həlli ilə əlaqədar araşdırmalarında irəli sürülən fikirləri, həmçinin bilavasitə iqtisadi fikir tarixi məsələlərinin tədqiqi ilə məşğul olan mütəxəssislərin fikirlərini öyrənməkdən ibarətdir.

Dissertasiya işində qarşıya qoyulmuş məqsədlərə nail olunması üçün aşağıdakı vəzifələr yerinə yetirilmişdir:

- Azərbaycanın iqtisadi fikrinin məzmunca yeniləşməsini zəruri edən şərait və amillərin təhlili;
- 80-cı illərin sonu – 90-cı illərin əvvəllərində respublikada iqtisadçıların nəzəri problemlərlə əlaqədar mühakimələrinin öyrənilməsi;
- keçid dövrünün aktual problemləri ilə əlaqədar nəzəri yanaşmaların təhlil və qiymətləndirilməsi;
- 90-cı illərdən başlayaraq Azərbaycan iqtisadi ədəbiyyatında yeni iqtisadi sistemin tələblərinə uyğun inkişaf problemlərinin araşdırılması;
- bazar iqtisadiyyatı münasibətlərinə keçidlə əlaqədar həyata keçirilən islahatlar mərhələsində iqtisadi fikrin əsas istiqamətlərinin təsnifatının verilməsi;
- respublikada iqtisadi dəyərləndirmələrdə polemika və diskussiyaların nəzəri qaynaqlarının müəyyənləşdirilməsi;
- milli iqtisadi fikrin formalaşmasında dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərinin aşkar edilməsi.

**Tədqiqatın obyekti.** XX əsrin 80-90-cı illərində respublikada iqtisadçı alimlərin dərc edilmiş əsərlərində iqtisadi fikir baxımından xüsusi maraq kəsb edən ideyalar, mühakimə və nəzəri yanaşmalardır.

**Tədqiqatın predmetini** isə 1980-90-cı illərdə iqtisadçıların mövcud iqtisadi sistem ilə əlaqədar iqtisadi fikirlərinin öyrənilməsi təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsasını** klassik siyasi-iqtisad məktəbinin, iqtisadi nəzəriyyənin müasir istiqamətləri və məktəblərinin (neoklassizim, keynsçilik, institusional-sosioloji istiqamət) ideyaları, iqtisadi sistemin transformasiyasına dair digər nəzəri baxışlar, Azərbaycan dövlətinin normativ-hüquqi sənədləri, ölkənin inkişaf proqramları və s. təşkil edir.

**Tədqiqatın informasiya bazasını** respublikada nəşr edilən çoxsaylı iqtisadi əsərlər, rəsmi dövlət qurumlarının layihə və proqramlarında diqqəti cəlb edən iqtisadi ideyalar, o cümlədən bəzi müstəqil ekspertlərin fikir və mülahizələri və s. təşkil edir.

**Tədqiqatın əsas elmi yeniliyi aşağıdakılardır:**

- Azərbaycanın iqtisadi fikrinin məzmunca yeniləşməsini zəruri edən amil və şərait iqtisadi tarix elminin meyarları baxımından qiymətləndirilmişdir;
- Azərbaycanın müasir iqtisadi fikrinin əsas istiqamətlərinin təsnifatı verilmişdir;
- Respublikamızda iqtisad elminə və təsərrüfatçılıq praktikasına mühüm təsir göstərmiş iqtisadçı alimlərin xidmətləri öyrənilmişdir;
- iqtisadiyyata dövlət müdaxiləsi, sosial və sənaye siyasəti, 90-cı illərdə baş vermiş iqtisadi böhranın səbəb və nəticələrinə, həmçinin makroiqtisadi sabitləşdirmə məsələlərinə dair müxtəlif yanaşmaların tərəfdarları arasında ideya və nəzəri fikir ayrılıqlarının mahiyyəti təhlil edilmişdir;
- Azərbaycan iqtisadiyyatında dövlət tənzimlənməsinin rolu, siyasi və iqtisadi maraqların uzlaşdırılması ilə əlaqədar mütəxəssis fikirlərində spesifik cəhətlər araşdırılmışdır;
- yeni iqtisadi sistemin tələblərinə uyğun iqtisadi fikirlərin təcrübi baxımdan əhəmiyyəti qiymətləndirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** XX əsrin 80-90-cı illərində iqtisadçı alimlər tərəfindən irəli sürülən bəzi fikirlər, respublika iqtisadiyyatının sonrakı inkişaf mərhələlərində dayanıqlı inkişafının təmin olunmasında nəzəri və praktiki baxımından xüsusi əhəmiyyət kəsb edir. Dissertasiyanın nəticələrindən həmçinin ümumi iqtisadiyyat ixtisaslarının bakalavr pilləsində tədris olunan "Azərbaycan xalqının iqtisadi fikir tarixi" fənni üçün mühazirə və seminar materialı kimi istifadə olunur (043/429-0 saylı 5 oktyabr 2012-ci il).

**İşin aprobasiyası və nəticələrinin tətbiqi.** Tədqiqat işinin ayrı-ayrı müddəaları, əldə olunan nəticələr və işdə irəli sürülən təkliflər, tövsiyələr respublika və beynəlxalq əhəmiyyətli konfranslarda müzakirə edilmiş, ümumi həcmi 7,7 ç.v. olan 19 məqalə və tezislərdə dərc edilmişdir.

**Dissertasiya işinin strukturu və həcmi.** İş giriş, üç fəsil, altı paraqraf, nəticə və ədəbiyyat siyahısından ibarətdir. İşin ümumi həcmi 148 səhifədir. İşin sonunda verilmiş ədəbiyyat siyahısı 132 mənbəni əhatə edir.

## Dissertasiya işinin mündəricatı

**Giriş**

**I Fəsil. Milli iqtisadi fikrin tədqiqinin nəzər-metodoloji əsasları**

1.1 İqtisadi fikirlərin formalaşması və inkişafının nəzəri metodoloji əsasları

1.2. Azərbaycan iqtisad elmi və iqtisadi fikir tarixinin kökləri və spesifik inkişaf xüsusiyyətləri *(XX əsrin 90-cı illərinə qədər*)

**II Fəsil. XX əsrin 90-cı illərində iqtisadi tədqiqatların məzmunu və inkişafının əsas istiqamətləri.**

2.1. Postsovet məkanında iqtisadi ədəbiyyatlarda keçid dövrünün nəzəri problemlərinin qoyuluşu və qiymətləndirilməsi.

2.2. 90-cı illərdə Azərbaycan iqtisadi ədəbiyyatlarında elmi fikrin inkişafına təsir edən akademik istiqamətlərin müəyyən edilməsi.

**III Fəsil. Milli iqtisadi fikrin inkişaf xüsusiyyətləri və yeni paradiqmaların meydana gəlməsi.**

3.1. Azərbaycanın iqtisadi fikrinin yeniləşməsini zəruri edən amillər.

3.2. Milli iqtisadi fikirdə ölkənin gələcək inkişaf perspektivlərinin əksi

**Nəticə və təkliflər**

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

## Müdafiəyə təqdim edilən əsas elmi müddəalar

**1. İqtisadi fikir və mülahizələrdə fərqliliyin səbəbləri göstərilmişdir**

- Vaxt keçdikcə iqtisadiyyat əhəmiyyətli dərəcədə dəyişilir, yəni hər növbəti dövrdə alimlər keyfiyyət baxımından digər təsərrüfat münasibətlərini aşkar edərək onları yeni prizmadan təhlil etmək məcburiyyətində qalırlar;
- eyni məsələyə dair müxtəlif fikirlər nəzəriyyədə öyrənilən iqtisadi sistemlərin natamam, yanlış şəkildə əks etdirilməsi ilə izah edilir və bu da onu tam xarakterizə edə bilməyən qeyri-mütənasib nöqteyi-nəzərlərin yaranmasına gətirib çıxarır;
- iqtisadi fikrin inkişafının müəyyən tarixi mərhələsində irəli sürülən nəzəri mühakimələr tamamlanmış və yetkin fikirlər kimi qiymətləndirilə bilməz. Fikir və ideyaların tarixi inkişaf prosesinin davamlılığı eyni zamanda onların hər hansı bir inkişaf mərhələsində hələ natamam ideya və fikir kimi qiymətləndirməyə əsas verir. Digər tərəfdən iqtisadi fikir və ideyaların müxtəlif inkişaf mərhələlərində natamam sayılan və bir-birinə zidd ideya və fikirlərin meydana çıxması təbii proses kimi dəyərləndirilməlidir;

- qarşılıqlı ideya mübarizəsi şəraitində irəli sürülən fikirlərin zəif və güclü tərəfləri meydana çıxır, məhdudiyyətləri aydınlaşdırılır. Aşkar edilən zəif cəhətlərin aradan qaldırılması cəhdləri isə son nəticədə yeni ideyaların yaranmasına, yeni fikir və nəzəri mühakimələr sisteminin formalaşmasına səbəb olur. Müəyyən vaxt keçdikcə nisbətən sabit sayılan nəzəri mühakimələr sistemi formalaşır. Lakin bütünlükdə formalaşmış nəzəri fikir və mühakimələr sistemi mütləq olmayıb, ancaq nisbi xarakter daşıyır;

- yuxarıda göstərilən bütün bu cəhətlər öz növbəsində sonrakı mərhələlərdə yeni polemikalara, fikir və ideyalar sisteminin formalaşmasına təkan vermiş olur. Yəni insan varlığı, insan cəmiyyətinin yaşamaq ideyası gündəmdə qaldıqca, adekvat ideyalar, nəzəri fikir sistemlərinin də yaranması, inkişafı, sonradan ən yeni ideya və fikirlərlə əvəz olunması obyektiv zərurətdir. İqtisadi fikir və mülahizələrdəki fərqliliyin obyektiv səbəbi iqtisadi gerçəkliyin müxtəlifliyi, subyektiv səbəbi isə eyni iqtisadi hadisəyə ayrı-ayrı müəlliflərin baxışlarında olan müxtəliflikdir.

**2. İqtisadi fikir üçün prioritet təşkil edən funksiyalar qruplaşdırılmışdır.**

- praqmatik (iqtisadi baxışların, təsərrüfatın inkişafının elmi, təcrübi dərslərinin tətbiqi);
- dəyər (iqtisadi inkişafın əsas mərhələlərinin təhlili, inkişafın məqsədləri, yolları, vasitələri və nəticələrinin qiymətləndirilməsi ilə müşayiət olunur);
- mədəni (iqtisadi təlimlər tarixinə təsərrüfat praktikasında və iqtisadi nəzəriyyədə keçmişin maddi və ideya ünsürlərini, iqtisadi inkişaf metod və vasitələrini seçməklə varislik yaradan sosial yaddaş funksiyası xasdır);
- fundamental (iqtisadi təlimlər tarixi yeni iqtisadi nəzəriyyələrin elmi əsaslandırılmasına və mövcud iqtisadi nəzəriyyələrin hərtərəfli səmərəli tətbiqinə kömək edir);
- dünyagörüşü (iqtisadi təlimlər tarixi iqtisadi inkişaf fəlsəfəsi ilə bir tutulur).

Bu gün, əvvəlkitək məhz iqtisadçıların təklif etdiyi nəzəri tədqiqatların doğruluğu həmin ölkədə həyata keçirilən sosial-iqtisadi strategiyanın səmərəlilik dərəcəsini əvvəlcədən müəyyən edir. Ölkəmizdə müstəqilik əldə edilənədək iqtisadi fikrin təşəkkülü prosesi asan və bir mənalı olmayıb. Sosializm siyasi iqtisadının problemlərinin işlənib hazırlanması sosial-iqtisadi dəyişikliklər, təsərrüfat fəaliyyəti praktikasının ümumiləşdirilməsinə ehtiyatla, ideoloji xarakterli tələbatlarla, hakim partiyanın iqtisadi siyasəti əsaslandırmaq və ona haqq qazandırmaq cəhdi ilə bağlı idi.

**3. İqtisadi fikrin öyrənilməsində metodoloji məsələlərin sosial istiqamətliliyi göstərilmişdir.**

İqtisadi fikrin inkişafı göstərir ki, təhlil metodlarını yeniləşdirmə və genişləndirmə cəhdlərinə baxmayaraq iqtisad elminin metodologiyası səmərəli inkişaf yolu ilə yüksəlişə aparmır, yəni onun "həqiqətə doğru bir istiqamətli irəliləmə"sini təmin etmir. Bunu nəzərə alaraq, görkəmli müasir iqtisadi fikir tarixçisi T.Neqişinin mövqeyini qeyd etmək olar: "... o demək deyil ki, bu gün nüfuzlu olan nəzəriyyə mütləq əvvəlkiləri, hal-hazırda inkar edilənləri ötüb keçir ... buna görə də köhnə ideyaların qayıtma imkanını yalnız yenilərini öyrənməklə anlamaq olmaz".[1]

Müasir iqtisadi ədəbiyyatlar iqtisad elminin "sosial elmlərin çariçasına" çevrilməsindən bəhs edərək onun təbii elmlərdən ona xas olan idrak imkanlarından, insanın və bütövlükdə cəmiyyətin fəaliyyətinin təhlilinə spesifik yanaşmalardan irəli gələn fərqləri qeyd edirlər. Lakin, məhz bu hallara görə iqtisad elmi öz inkişafında, bir tərəfdən, "daima geriyə, nail olduğuna (bu paradiqmada ümumi əhəmiyyət kəsb edənə) qayıtmağa", digər tərəfdən isə, mütləq "informasiyanın bir qismini aksioma kimi sübutsuz qəbul etməyə" "məhkum"dur.[2]

Həmçinin, iqtisad elminin digər sosial elm sahələri ilə tədqiqat nəticələri mübadiləsi prosesində müqayisəli üstünlükləri var. Məsələn, hələ A.Marşallın "Ekonomiksin prinsipləri" (1890) adlı kitabında qeyd etdiyi kimi, "iqtisad elmi digər ictimai elm sahələri ilə müqayisədə daha çox irəliləyişə nail olub, çünki o digər sahələrdən daha aydın və dəqiqdir". Lakin, bununla yanaşı o izah edirdi: "Geniş mübahisəli ərazi mövcuddur. Burada iqtisadi fikirlər böyük, lakin üstünlük təşkil etməyən təsirə malikdir və hər bir iqtisadçı özü üçün bu ərazidə fəaliyyətini nə qədər genişləndirəcəyini şüurlu olaraq qərarlaşdıra bilər. O, öz dayağından uzaqlaşdıqca və qismən elmi metodla əhatə edilə bilməyən yaşayış şəraiti və fəaliyyət motivləri ilə get-gedə çox məşğul olduqca, onun danışığında əminlik azalacaq".[3]

Bununla belə, müasir iqtisadçıların iqtisad elminin metodologiya, o cümlədən iqtisadi fikir tarixi problemlərinə, onun mərhələlərinin, nəzəri istiqamət və məktəblərin zaman hüdudlarının müəyyənləşdirilməsi məsələlərinə baxışlarında olan uyğunsuzluqların aşkarlanması vacibdir.

---

[1] Негиши Т. История экономической теории. М., 1995.
[2] Yenə orada, s.17-18.
[3] Маршалл А. Принципы экономической науки. Том 3, М., 1993, 223 стр.

**4. Metodoloji prinsiplər üzrə ziddiyyətlərin həll olunması amili xüsusi ilə vurğulanmışdır.**

Əsas metodoloji prinsip ümumdünya sistemi prinsipidir, yəni bu anlamda iqtisadi fikir tarixi bir-biri ilə qarşılıqlı ziddiyyətdə olan ümumdünya prosesi kimi diqqəti cəlb edir. Sözügedən prosesdə müxtəlif millətlərin və regionların alimləri getdikcə daha fəal iştirak edirlər. Nəzəriyyələr daima inkişaf və hərəkətdədirlər. Burada təkcə hər kəs tərəfindən qəbul edilən nəticələr, hər kəsi birləşdirən və elmi irəli aparan fikirlər nəzərdən keçirilmir.

Təkcə elmi nəzəriyyələrdə deyil, eyni zamanda alternativ nəzəriyyələrdə də əsas vurğu universal – sistemlilik prinsipinə yönəldilmişdir.

Lakin sistemlilik yanaşması tətbiq olunsa da, ayrı-ayrı sosial qrupların, siyasi partiya və hərəkatların maraqları ilə birbaşa əlaqədar metodoloji və nəzəri əsaslar bir-birindən fərqləndirilir.

Məlum olduğu kimi, metodologiya metodlar haqqında elmdir. Onun iqtisad elmində rolu, təsərrüfat həyatının və iqtisadi hadisələrin, müvafiq biliklərin bu və ya digər iqtisadi sistemin inkişafı mexanizminin real şəkildə işıqlandırılması üçün ona xas olan kateqoriya və qanunları nəzərə almaqla əldə etmə vasitə (alət) və yollarının (üsullarının) öyrənilmə metodlarının aşkar edilməsindən ibarətdir. Lakin elmi idrak metodlarının mahiyyətini nəzərdən keçirməzdən əvvəl onun istənilən digər elm sahəsi kimi əsaslandığı ümumi strukturlaşdırma prinsiplərini, həmçinin əsas metodoloji prinsiplərin mahiyyətini qısaca xarakterizə etmək məqsədəuyğundur.

Tarixən elə vəziyyət yaranır ki, tədqiqatçılar müsbət xarakter daşıyan nəticələr çıxarmağa və ümumiləşdirmələr etməyə meyillidirlər və onlar əsasən normativ xüsusiyyətli əqidələri rəhbər tuturlar, istədikləri və ya ideallaşdırdıqları prinsiplərə və əla vəziyyətə əsaslanırlar, bununla da gerçəkliyin real şəkildə əks etdirilməsindən süni olaraq uzaqlaşırlar. Bununla belə iqtisad elminin strukturundakı bu tərkib hissəsi (müsbət elm) etik və normativ mülahizələrdən tamamilə azad olduğu üçün obyektiv adlandırılmasına iddia edir. Buna baxmayaraq, iqtisad elmi real gerçəklikdə normativ (tənzimləyici) hissədən ibarətdir. Eyni zamanda iqtisad elmində müsbət və normativ hissələrin arasındakı nisbətə dəyişən səviyyələr mövqeyindən baxılmalıdır. Bu onunla bağlıdır ki, müsbət qənaətlər normativ müddəaların xülasə edilməsi üçün əsas olaraq, çox vaxt müəyyən normativ xüsusiyyətli müddəaların nəticəsi olur. Nəhayət, iqtisad elminin strukturunda üçüncü hissə "iqtisadi sənət" nəticəsində, yəni məzmunlu fərziyyələr bazasında yaradılmış nəzəriyyələr üçün ayrılır. Digər sözlə, sonuncular təsdiqlənmiş müddəalar və qənaətlər kimi deyil ("fərziyyə" kateqoriyasının tərifindən nəticə çıxarıldığı kimi), əksinə-sübuta yetirilməli və müvafiq olaraq "müəyyən məqsədə nail olmaq üçün qaydalar sistemi"nə daxil edilmiş kimi nəzərdən keçirilir.

Yuxarıda qeyd edilən strukturlaşdırma prinsipləri və müvafiq olaraq iqtisad elminin üç tərkib hissəsi ilk dəfə məşhur ingilis iqtisadçısı Con Nevil Keyns tərəfindən onun "Siyasi iqtisadın predmeti və metodu" (1891) əsərində əsaslandırılmış və tədqiq edilmişdir. O, bu hissələrin hər birinin mahiyyətini belə xülasə etmişdir: "müsbət elm ... olan şeylərə aid sistematik biliklər məcmusu, normativli və ya tənzimləyici elm... olmalı şeylərə aid sistematik biliklər məcmusu... müəyyən məqsədə nail olmaq üçün qaydalar sistemi... sənət".

Elmin, o cümlədən iqtisad elminin, ən mühüm metodoloji prinsipləri arasında irrasionalizm, relyativizm, evolyusionizm, orqanisizm, polifunksionalizm kimi prinsiplər ayırd edilir.

İrrasionalizm-təfəkkürün idraki əhəmiyyətinin inkar edilməsini tələb edən metodoloji prinsipdir. İrrasionalizm təfəkkürə köməkçi rolu ayırır və buna görə istər insanın və ətraf aləmin, istər tarixin öz təbiətinə görə irrasional olması fikrinin irəli sürülməsinə yol verir və mənəvi həyatın təfəkkürdən kənarda qalan aspektlərini (iradə, hiss, intuisiya, təxəyyül, mistik nurlanma və s.) ön plana çıxarır.

Relyativizm-gerçəkliyin dəyişkənliyi və onun haqqında biliklərimizin şərtliliyi barədə müddəaların mütləqləşdirilməsinə əsaslanan metodoloji prinsipdir. Bunun nəticəsində əvvəllər nail olunmuş səviyyənin aradan qaldırılmasına səbəb olan idraki inkişaf faktları onun (idrakın) qeyri-doğruluğunun sübutedici dəlilləri kimi, obyektiv həqiqətlərin inkar edilməsi üçün əsas kimi nəzərdən keçirilir.

Təkamül – elə metodoloji prinsipdir ki, ona müvafiq olaraq sistemin inkişaf prosesi baş verən tədrici və dərin keyfiyyət dəyişikliklərini şərh etməyə, bu dəyişikliklərin təbiətdəki və ictimai proseslərdəki (o cümlədən iqtisadiyyat, mədəniyyət və digər sistemlərdəki) xüsusiyyətlərini xarakterizə etməyə imkan verən kəmiyyət xarakteristikalarının tədrici dəyişilməsi kimi nəzərdən keçirilir.

Orqanisizm – obyektlərin öyrənilməsinə yalnız bütöv (sistemli) yanaşmanı nəzərdə tutan metodoloji prinsipdir. Bu obyektləri təşkil edən elementlər və onların arasındakı münasibətlər isə yalnız tədqiq edilən obyektin komponentləri (hissələri) kimi xarakterizə edilir.

Polifunksionalizm – bir çox sosial funksiyaların yalnız insanı əsasən faydalılıq funksiyasının maksimizatoru kimi xarakterizə edən bir tərif şəklinə salınmaması üçün fərdin fəaliyyətinin müxtəlif təzahürlərdə öyrənilməsini nəzərdə tutan metodoloji prinsipdir.

**5. Azərbaycan iqtisadi fikrinin öyrənilməsi xüsusiyyətlərindəki fərqliliklər üzə çıxarılmışdır.**

Şərqin, o cümlədən Azərbaycanın orta əsrlərdə yaşayıb yaratmış böyük filosof və mütəfəkkirlərinin əsərlərində cəmiyyətin iqtisadi quruluşu və onun inkişaf qanunları haqqında dəyərli nəzəri fikirləri vardır. Böyük Şərqin dünya şöhrətli mütəfəkkirlərindən Əbu Reyhan Biruni, Nizami Gəncəvi, Nəsrəddin Tusi, İbn Xəldun bəşər mədəniyyətinə böyük elmi töhfələr vermişlər. Onların iqtisadi fikir sahəsində də böyük xidmətləri olmuşdur.

"Kitabi-Dədə-Qorqud" dastanında dövrün iqtisadi və sosial şəraiti haqqında geniş məlumat verilmişdir. Dastanda müxtəlif iqtisadi anlayışlar haqqında-əmtəə, pul, mübadilə, ticarətə aid ilkin elmi təsəvvürlər əksini tapmişdir.

Orta əsrlər Azərbaycanın sosial-iqtisadi şəraiti, dövlət quruluşunu özündə əks etdirən bir çox əsərlər yazılmışdır. Bu əsərlərdə Azərbaycanda iqtisadi fikir özünün yüksək səviyyəsinə çatır. Bu dövrün iqtisadi fikirləri ümumiləşdirilərkən keçmiş irsimizə müasir dövrün tələbləri ilə də yanaşmaq mümkündür.

Ölkəmizdə ictimai-nəzəri fikrin inkişafına xidmət göstərənlərdən biri də Nəsrəddin Tusidir. Onun iqtisadi fikirləri məşhur "Əxlaqi-Nasir" əsərində öz əksini tapmışdır. Nəsrəddin Tusiyə görə "İnsan öz tələbatını ödəməyə möhtacdır".[1] Belə halda əmək və istehsal fəaliyyəti vacibdir. Buna görə də, insanlar bir-birinə kömək edərlərsə, dövlətə lazım olandan çox istehsal edər, artığını başqalarına vermək və alqı-satqı yolu ilə cəmiyyətdə müvazinət və tarazlıq yaratmaq və yaşayış vasitələri ilə təmin etmək mümkündür. Nəsrəddin Tusi əməyə çox böyük əhəmiyyət verib. O yazır:"Cəmiyyətin nizamı, insan həyatı əmək əsasında qurulmuşdur, əmək köməksiz, kömək isə ictimai forma olmadan insan növü yaşaya bilməz". O, iqtisadi həyat gerçəkliyində özünü açıq şəkildə göstərməyən belə bir həqiqəti aydınlaşdırır ki, zahirən fərdi xarakter daşıyan əmək növləri ictimai əməyin hissələridir. Tusi ictimai əmək prosesindən kənarda insan fəaliyyətinin mümkün olmadığını bildirir: "Kim qarşılıqlı kömək və əməyə xor baxır, onu kiçik, zəhmətsiz bir şey hesab edirsə, həqiqətdə o rəzil və xırda adamdır". Tusi yazır: "Belə adamlar tərki-dünyalığı seçdiklərindən, təbiətlərində qüvvə şəklində gizli saxlanılan istedadlarını faydalı əməyə sərf etmirlər". Buradan çıxan digər bir nəticə ondan ibarətdir ki,

[1] Tusi Nəsrəddi Xacə "Əxlaqi Nasir". Bakı, 1989, səh 34.

Tusi "İnsanın təbiətində gizli saxlanılan istedadın"[1] sərf edilməsini əmək adlandırır.

XVIII əsr Azərbaycan xalqının iqtisadi fikrində, Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" ("Tarixlərin ən yaxşısı") əsəri mühüm yer tutur. Bu əsərdə XV-XVII əsrlər Azərbaycanın ictimai-iqtisadi və siyasi həyatı, dövlət quruluşu məsələləri hər hansı bir mənbədə olduğundan daha düzgün və dolğun əksini tapmışdır.

Azərbaycanın görkəmli maarifçi xadimləri milli şüurun və iqtisadiyyatın yüksəldilməsi üçün mühüm nəzəri və əməli təkliflər irəli sürmüşlər.

Azərbaycan mütəfəkkirlərinin iqtisadi fikir və görüşlərində təsərrüfatın kooperasiya və əmək bölgüsü əsasında aparılmasının işlərin üstünlükləri düzgün qeyd edilir və qiymətləndirilir.

Beləliklə, xalqın iqtisadi fikir tarixinə dair bu nümunələr onun zənginliyini ifadə etmək üçün kifayət edir.

**6. 1980-90-cı illərdə Azərbaycan iqtisadi fikrində nəzəri problemlərin qoyuluşu müxtəlif meyarlarla qiymətləndirilmişdir.**

50-ci illərdən etibarən SSRİ Elmlər Akademiyası başda olmaqla SSRİ xalqlarının iqtisadi fikir tarixinin öyrənilməsi məsələsinin yenidən qaldırılması respublikamızda da öz nəticəsini göstərmişdir. Lakin, həmin illərdə elmi-tədqiqat işlərinin geniş xarakter almasına baxmayaraq, Azərbaycan xalqının iqtisadi fikir tarixinin ancaq bəzi fraqmentləri tədqiqatçı alimlərimizin əsərlərində öz əksini tapmışdır.

XX əsr Azərbaycan iqtisad elminin və iqtisadi fikrinin inkişafını, şübhəsiz, birmənalı qiymətləndirmək olmaz. Heç də kiçik olmayan bu tarixi mərhələnin dərsləri, iqtisad elmində ziddiyətlilik, qapalılıq, ideologiyalaşdırma, sxolastik nəzəriyyəçilk, məhdudluluq və digər bu kimi halların mövcudluğunu üzə çıxarsa da, belə bir inkarolunmaz həqiqəti də aşkarlayır ki, bu elm hər hansı bir tarixi dövrdə olduğundan daha çox inkişaf etmişdir. Bu dövrün iqtisad elminin bir çox müddəaları müasir paradiqmalarla uzlaşmasa da, yüksək iqtisadi təfəkkür mədəniyyəti formalaşdırmışdır.

Bu dövrdə iqtisadi islahatlara akademik yanaşmanın tərəfdarları xalq təsərrüfatının transformasiyasının elmi bazasının əsaslı tədqiqi ilə fərqlənirlər. Onlar keçid mərhələsində dövlətin roluna böyük diqqət ayırırlar, sosial siyasətin prioritetliyinin lehinə çıxış edirlər. Eyni zamanda akademik istiqamətin görkəmli nümayəndələrinin ideyalarında müəyyən fərqləri də tapmaq olar. Məsələn, qərarsızlıq və keçid prosesinin uzadılmasına meyllik, böyük radikalizm, bazara aydın yönümlülük. Lakin, bununla belə

[1] Tusi Nəsrəddi Xacə "Əxlaqi Nasir". Bakı, 1989, səh..34.

bazarın iqtisadi metodlarla indikativ planlaşdırılmasının və dövlət tənzimlənməsinin rolu inkar edilmirdi, milli əmlak sistemi ölkənin uğurlu inkişafının əsaslarından biri hesab olunurdu. Əsas problem sənayenin iri konsernlər və dünya bazarında rəqabət qabiliyyətinin artımı əsasında dirçəlməsi, dövlətin xalq təsərrüfatının inkişafında rolunun artması, iqtisadi və siyasi müstəqilliyə daha çox malik olma cəhdləri barədə ideyaların bir çox qərb ölkələr tərəfindən qəbul olunmaması idi.

Tədqiq olunan dövrdə mövcud iqtisadi sistem çərçivəsində ictimai istehsalın səmərəliliyinə nail olmağın tədricən mürəkkəbləşdiyi müşahidə olunurdu. Daha çox inzibati-amirlik sisteminə məxsus mövcud təsərrüfatçılıq mexanizmlərindən istifadə olunması kifayət qədər iqtisadi səmərə vermirdi. Bu məsələnin nəzəri və praktik cəhətləri Azərbaycan iqtisadçılarının diqqət mərkəzində oldu. Demək olar ki, Azərbaycanın görkəmli iqtisadçılarının böyük əksəriyyəti tədqiqatlarında bu məsələdən bəhs etmişlər. Nəzəri aspektdən B.Y.Axundov dəyər qanunundan istifadənin vacibliyini, T.S.Vəliyev sosializmdə rəqabət məsələsini, M.M.Allahverdiyev mühüm iqtisadi mexanizm kimi təsərrüfat hesabından istifadəni, A.A.Nadirov məhsuldar qüvvələrin yerləşdirilməsinin səmərəliliyini, Z.Ə.Səmədzadə məşğulluq və əmək problemini, Ş.M.Muradov əmək ehtiyatlarından səmərəli istifadə məsələlərini, S.K.Hüseynov struktur, infrastruktur, sənaye-istehsal komplekslərini, Ə.X.Nuriyev region iqtisadiyyatı, idarəetmə, ümumiyyətlə regionlaşdırma məsələlərini tədqiq etmişlər.

**7. 90-cı illərdə Azərbaycanın iqtisadi ədəbiyyatında xüsusi rol oynayan akademik istiqamətlər müəyyən edilmişdir**

80-90-cı illərdə ölkə iqtisadiyyatında islahatların həyata keçirilməsi ilə əlaqədar bir çox nəzəriyyələr və onların tərəfdarlarının fikirləri iqtisadi ədəbiyyatlarda səslənmiş və bu sahədə olduqca böyük rəngarənglik, fikir plüralizmi müşahidə edilmişdir. Sözügedən müxtəlif fikirlər içərisində bir neçə istiqamətlər xüsusi olaraq diqqəti cəlb edir və burada əsas istiqamətlər kimi akademik, radikal-liberal, mötədil (mülayim) liberal, sol-mərkəziyyətçiliyə doğru meylli sosial-demokrat istiqamətlər xüsusi olaraq seçilir. Bu istiqamətlər arasında fikir müxtəlifliyi təkcə keçid dövrünün real amilləri ilə əlaqədar deyil, həmçinin siyasi-ideoloji məsələlərin həllində üstünlük verilən üsullarla əlaqədar səslənən fikirlərdə də özünü büruzə verir. Akademik yanaşma tərəfdarları iqtisadi islahatlara münasibət bildirərkən xalq təsərrüfatının transformasiya məsələləri ilə əlaqədar daha geniş elmi əsaslar üzərində fikirlər irəli sürərək dövlətin keçid dövründə tənzimləyici roluna və xüsusən də sosial siyasətdə üstün roluna böyük əhəmiyyət verirdilər.

XX əsrin 80-ci illərinin sonları - 90-cı illərinin əvvəllərində ölkəmiz ciddi iqtisadi böhranla qarşılaşmışdı. Bir çox onilliklər ərzində yaradılan inzibati-amirlik təsərrüfat sistemi dağılaraq, iqtisadiyyatda köklü islahatlar aparmaq üçün obyektiv şərait yaranmışdı. İqtisadi transformasiyanın əsas problemi plan mexanizmləri ilə bazar mexanizmlərinin paralel olaraq fəaliyyət göstərməsi idi. Bu dövrdə, islahatların aparılmasına dair çoxsaylı konsepsiyalar təklif olunur. Bu konsepsiyaların bəzilərinin tərəfdarları köhnə sosialist sisteminə müasir bazar mexanizmlərinin daxil edilməsi yolu ilə tədricən bu sistemin islahatlaşdırılmasını müdafiə edirdilər. Digər iqtisadçılar isə tam əks mövqeyi müdafiə edərək dərhal bazar iqtisadiyyatının tətbiq edilməsini, dövlətsizləşdirmə və iqtisadiyyatın tarazlığının pozulması şəraitində maliyyə stabilliyinin təmin olunmasını zəruri hesab edirdilər. Belə müxtəlif fikirlərin sənayedə və sosial sahədə ciddi nəticələrə gətirib çıxarmışdı.

Bazar radikalizminin tərəfdarları olan iqtisadçılar həm bazarın özünü tənzimləməsinin stimullaşdırılmasında, həm də dövlətin rolunun məhdudlaşdırılmasında israrlı idilər. Onların opponentləri isə əksinə hesab edirdilər ki, Azərbaycan şəraitində məhz, pul, vergi və digər iqtisadi tənzimləmə tədbirləri vasitəsi ilə dövlətin iqtisadiyyata müdaxiləsi vacibdir. Bəzi iqtisadçılar xarici ölkələrin təcrübəsindən geniş istifadə etməyi və beynəlxalq maliyyə institutlarının iqtisadiyyatda islahatların keçirilməsinə cəlb edilməsini təklif edirdilər. Onların opponentləri isə, əksinə, fundamental iqtisadi-riyazi tədqiqatları misal gətirərək, özümüzün «üçüncü yolumuzu» inkişaf etdirməyi məqsədəuyğun hesab edirdilər.

Çoxlu sayda elmi əsərlərin dərc olunmasına, XX əsrin 80-ci illərinin sonları - 90-cı illərin əvvəllərində mövcud olan iqtisadi fikirlər barədə tədqiqatları bitmiş hesab etmək olmaz. O dövrün iqtisadi ədəbiyyatının publisistikasının üstünlük təşkil etdiyini, hadisələrin ancaq şərhinə daha çox diqqət yetirildiyini müşahidə etmək olar. Digər tərəfdən təklif edilən konsepsiyaların əksəriyyətinin konkret siyasi təqdimatlar üzərində qurulması da onlara iqtisadiyyatda mövcud olan problemləri kompleks şəkildə əhatə etməyə imkan vermir. Ona görə də, bu konsepsiyaların iqtisadi mahiyyətinə əsaslanan və siyasi təsirlərdən azad olan iqtisadçı baxışlarının kompleks tədqiqi xüsusi əhəmiyyət kəsb edir. Bundan irəli gələrək, XX əsrin 80-90-cı illərdə mövcud iqtisadi fikrin dörd əsas istiqamətini qeyd etmək olar:

- akademik istiqamət (bir sıra bazar təsərrüfatı elementlərinin tətbiqi əsasında köhnə sosialist iqtisadi sistemində tədricən islahatların aparılması). Məlumdur ki, 70-ci illərin sonları - 80-ci illərin əvvəllərində sovet

iqtisadiyyatı böhrana doğru gedirdi. 80-90-cı illərdə aparılan yenidənqurma və iqtisadi islahatlar, mövcud çətinliklərin aradan qaldırılmasını qarşıya məqsəd qoydu. Buna baxmayaraq, 90-cı illərin əvvəllərində iqtisadiyyat hələ də əvvəlki durğunluq vəziyyətindən çıxmamışdı. İnkişaf, əsasən, ekstensiv yolla gedirdi, disproporsiyalar aradan qaldırılmamışdı, bir sıra hallarda isə kəskinləşmişdi. Buna görə də, qarşıda, islahatların aparılacağı yolun seçimi problemi dururdu.

İqtisadiyyatın islahatlanmasının aşağıdakı başlıca məsələləri üzrə tədqiqatlar aparılırdı: sənaye siyasəti, sosial siyasət, maliyyə siyasəti; demoqrafiya, məşğulluq və sosial problemlərin öyrənilməsi istiqamətində yerinə yetirilən elmi tədqiqatlar, regionların iqtisadiyyatı, xarici iqtisadi əlaqələrin nəzəri və praktiki məzmun daşıyan problemlərinin təhlil və dəyərləndirilməsi, aqrar sahənin problemlərinin öyrənilməsi, elm və xidmət sahələrinin iqtisadiyyatı ilə əlaqədar İqtisadiyyat İnstitutunda yerinə yetirilən araşdırmalar.

Təklif edilən iqtisadi islahatların əsas elementləri araşdırılmış, onların ölkədə yaranmış siyasi vəziyyətlə əlaqəsi açıqlanmışdır. Qeyd edilmişdir ki, bəzi iqtisadçılar dövlətin iqtisadiyyatın tənzimlənməsində rolunu və iqtisadi siyasətin formalaşmasında siyasi maraqların iqtisadi maraqlardan üstünlüyünü kifayət qədər qiymətləndirmirlər. Tədqiqatlarda, XX əsrin 90-cı illərinin əvvəllərində aparılan radikal dövlətsizləşdirmə və liberallaşmanın mənfi nəticələri açıqlanmışdır. Beynəlxalq maliyyə təşkilatlarının təklif etdiyi standart makroiqtisadi stabilləşdirmə metodlarının tətbiqinin aşağı səmərəliliyi qeyd edilərək, iqtisadiyyatın islahatlanmasında fundamental iqtisad elminin rolunun qiymətləndirilməməsi vurğulanmışdır.

XX əsrin 80-90-cı illərində təklif edilən iqtisadi nəzəriyyələrə yenidən baxılması, iqtisadi praqmatizm nöqteyi-nəzərindən, indiki şəraitdə də faydalı ola bilər. Hazırda siyasi məqsədlərdən iqtisadi məqsədlərə keçid xüsusilə vacibdir və hökumətin apardığı siyasət məhz buna istiqamətlənmişdir.

Radikal-islahatçıların buraxdığı səhv ondan ibarət idi ki, bazarın özünütənzimləmə mexanizmlərini irəli çəkən radikal bazar liberalizmi ideologiyası və pul sahəsinin stabilləşməsini vacib sayan monetar nəzəriyyələrin təsiri altında, köhnə sistemdən miras qalmış iqtisadiyyatın xüsusiyyətləri nəzərə alınmamışdır.

İqtisadiyyatda struktur disproporsiyaları nəzərə alınmadan bazar iqtisadiyyatına keçid üzrə standart kompleks tədbirləri tətbiq etmək cəhdi, bazar iqtisadiyyatlı ölkələrdə dəfələrlə təcrübədən keçirilməsinə baxmayaraq bu standart makroiqtisadi siyasətin iflasa uğramasına gətirib çıxar-

mışdır. Normal bazar institutlarının olmaması şəraitində aparılan pul sahəsinin stabilləşməsi, rəqabət mexanizminin tətbiqi, şaquli təsərrüfat əlaqələrinin dağılması və bölünmə prinsipi əsasında aparılan özəlləşdirmə, ciddi sənaye böhranına, bir çox müəssisələrin bağlanmasına, yerli malların rəqabət qabiliyyətinin itirilməsinə və idxal mallarının bazarı tutmasına səbəb olmuşdur. Həmçinin, iri konsernlər və dünya bazarında iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəlməsi, dövlətin iqtisadiyyatda rolunun artırılması, iqtisadi və siyasi cəhətdən daha çox müstəqilliyə can atma əsasında sənayenin yenidən bərpa edilməsi haqqında hökumətin istiqamətləndiyi ideyaların bir çox qərb ölkələri tərəfindən qəbul edilməməsi də öz mənfi təsirini göstərmişdir.

- radikal-liberal (radikal-liberal istiqamət üçün, hər şeydən əvvəl, makroiqtisadi stabilləşmə, iqtisadiyyatda dövlətin rolunun məhdudlaşdırılması, özünütənzimləmə, bazar mexanizmlərinin formalaşmasına istiqamətlənmə, dövlətsizləşdirmə və inhisarçılığın aradan qaldırılmasına istiqamətlənmiş özəlləşdirmə xarakterikdir). XX əsrin 90-cı illərində aparılan islahatlar proqramının həyata keçirilməsində buraxılan əsas səhvlərdən biri, makroiqtisadi siyasətin real vəziyyətdən fərqli olmasından ibarətdir. Bazar iqtisadiyyatına keçid üzrə standart kompleks tədbirlərin - qiymətlərin liberallaşması, bazarların əkstənzimlənməsi, kütləvi özəlləşdirmənin tətbiqi iqtisadiyyatda struktur disproporsiyalar və mikrosəviyyədə mövcud qaydalar nəzərə alınmadan həyata keçirilirdi. Nəticədə, bir çox bazar iqtisadiyyatlı ölkələrdə dəfələrlə təcrübədən keçirilən standart makroiqtisadi siyasət müəyyən səmərə vermişdir;

- orta-liberal (sənayenin prioritet sahələrinin müəyyən edilməsi və sənaye strukturunun formalaşması). Bu, əsaslı iqtisadi artımın təməlinin qoyulmasına imkan vermişdir. Bu işdə əsas rol hökumətə məxsusdur. Tədbirlər kompleksi dövlətin iqtisadiyyata müdaxiləsini bazar təsərrüfatçılığı mexanizmləri ilə düşünülmüş surətdə birləşdirməyə imkan verir. Belə sistemdə, mərkəz özəlləşdirmə proseslərinə aktiv surətdə müdaxilə edərək, milli sənayenin inkişafına və kapital qoyuluşlarının dəstəklənməsi üçün stabil maliyyə sisteminin yaradılmasına böyük önəm verir;

- sol-mərkəzçi elementlərlə sosial-demokratik (bazar münasibətlərinin formalaşması və tənzimlənməsində dövlət strukturlarının iştirakına olan ehtiyac) Azərbaycanda rəqabət mühitinin yaradılmasının təmin edilməsi, istehlakçı hüquqlarının müdafiəsi, investisiya aktivliyinin stimullaşdırılması və istehsalın inkişafı məhz dövlətin üzərinə düşür. Müasir bazar iqtisadiyyatı ideyalarının tərəfdarları təklif edirlər ki, sadəcə, inkişaf etmiş ölkələrin təcrübəsini Azərbaycan iqtisadiyyatına köçürtmək deyil, bu işi

düşünülmüş şəkildə, iqtisadiyyatın xüsusiyyətlərini nəzərə almaqla həyata keçirmək lazımdır. Təsadüfi deyil ki, prioritet kimi konsernlərin inkişafı sənaye siyasətinin və istehsal vahidlərinin şaquli inteqrasiyasının irəli sürülməsi, yerli iqtisadiyyatın xüsusiyyətlərinin öyrənilməsi və məhz bu şəraitə adartasiya olunmuş iqtisadi siyasət üzərində öz konsepsiyalarını qurmaq bir çox iqtisadçı üçün xarakterikdir. Lakin, tədqiqatda iqtisadi fikrin əsasən akademik istiqamətləri araşdırılmışdır.

XX əsrin 80-90-cı illərində tarixi təcrübə sübut edir ki, xalq təsərrüfatı ilə əlaqədar qəbul olunmuş bir çox qərarlar iqtisadi praqmatizm mövqeyindən deyil, siyasi cəhətdən nə qədər məqsədəuyğun olması mövqeyindən qəbul olunmuşdur. 90-cı illərdə həyata keçirilən islahatlarda əsas məqsəd köhnə siyasi sistemin dağıdılması və bazar iqtisadiyyatı münasibətlərinin bərqərar olduğu sistemə keçmək olmuşdur.

Bəhs olunan dövrdə dövlət tərəfindən işlənib hazırlanan və həyata keçirilən iqtisadi siyasət iqtisadi fikir üçün sanki bələdçi rolunu oynayırdı. Bu mənada iqtisadi fikir daha çox özünü iqtisadi publisistika kimi göstərirdi. Tam sərbəst, müəyyən mənada müxalif olan fikirlər ciddi elmi səviyyədə diqqət mərkəzində demək olar ki, yox idi.

**8. Azərbaycan iqtisadi fikrində məzmunca yeniləşməni zəruri edən amillər üzə çıxarılmışdır.**

Artıq XXI əsrin başlanğıcında Azərbaycanın milli iqtisadiyyatında böyük dəyişikliklər baş vermişdir. Azərbaycanda Sovet dövründə iqtisad elmləri sistemi yaradılmış, yüksək ixtisaslı iqtisadçı kadrlar hazırlanmış, xalqın iqtisadi təfəkkürü inkişaf etmişdir. Bu dövrdə iqtisadi fikir üçün mühüm səciyyəvi cəhət iqtisad elminin differensasiyasıdır. Deməli, bu tarixi dövrdə nəzəri iqtisad (siyasi iqtisad), sahə və sahələr arası iqtisad elmləri formalaşıb inkişaf etmişdir.

Lakin, eyni zamanda bu dövrdə iqtisad elmləri sistemində müəyyən nöqsanlar da mövcud olmuşdur və onlar tədricən artmışdır. XX əsrin sonlarında iqtisad elmləri sistemində ciddi yeniləşmə baş vermişdir. Bu yeniləşmənin mahiyyətini izah etmək üçün Sovet dövründə iqtisadi fikirdə mövcud çatışmazlıqları göstərmək, onların aradan qaldırılması yollarını müəyyənləşdirmək vacibdir.

XX əsrin sonlarında Azərbaycanın iqtisadi fikrində (iqtisad elmləri sistemində) olan başlıca nöqsanlar aşağıdakılardan ibarət idi:

- iqtisad elminin siyasət və ideologiya ilə əvəz olunması kimi ziyanlı bir vəziyyət əmələ gəlmişdi;
- əslində bununla da iqtisadi nəzəriyyə elmi həyatın reallıqlarından uzaq düşmüşdü;

- iqtisad elmində ayrı-ayrı fikir və mülahizələrin generatoru kimi iqtisadçı alimlər deyil, partiyanın qurultay, plenumlarının qərar və qətnamələri çıxış edirdi;
- real iqtisadi hadisələrə münasibətdə "formasiya" baxışı və sinfilik prinsipləri mütləqləşdirilmişdi;
- Azərbaycanda iqtisad elmi əyalət məhdudiyyətindən azad olmadığından iqtisad elmi özünün tam potensialını ölkəmizin suverenliyi istiqamətinə yönəldə bilməmişdi;
- ideoloji məhdudiyyət və qadağalar ucbatından Azərbaycan xalqının iqtisadi fikir tarixində çoxlu ağ səhifələr olmuşdu;
- dünya iqtisadi fikri ilə əlaqə olduqca məhdud və qapalı olmuşdur.

Tarixi inkişafın bütün mərhələlərində iqtisadi fikir, iqtisadi düşüncə tərəqqiyə bu və ya digər dərəcədə təsir göstərmişdir. Lakin, bu da bir həqiqətdir ki, iqtisad elmi bir sahə kimi XIX əsrdə daha qabarıq surətdə fəaliyyət göstərmişdir. XX əsrdə isə bu elmin rolu daha da artmış, dünya iqtisadiyyatının inkişafına güclü təkan vermişdir.

**9. İqtisadi ədəbiyyatlarda "milli baza"nın xüsusiyyəti müəyyən olunmuşdur.**

İqtisadi ədəbiyyatda milli və azad iqtisadiyyatın formalaşmasını nəzəri cəhətdən təhlil edən iqtisadçılar milli baza (əsas) kateqoriyasına xüsusi əhəmiyyət verilər. Həmin fikrin tərəfdarları belə hesab edirlər ki, hər hansı ölkənin iqtisadiyyatının rəqabət qabiliyyətinə, milli şərait, başqa sözlə, milli təsərrüfatın strukturuna, milli mədəniyyət, dövlət idarəetmə işçilərinin mentaliteti, hətta ölkənin tarixi və s. mühüm təsir göstərir. Deməli, milli baza (əsas) dedikdə, hər şeydən əvvəl iqtisadiyyatın inkişafına şərait yaradan, onu stimullaşdıran sosial-iqtisadi, ictimai-tarixi mühit, nəhayət, milli mentalitetə əsaslanan inkişaf konsepsiyasının olması nəzərdə tutulur. Məhz elə buna görə də, Çin, Yaponiya, Cənubi Koreya kimi ölkələrdə inkişafın hərəkətverici qüvvələri mənbələri məlum klassik bazar prinsipləri ilə izah oluna bilmir. Burada ən mühüm problem milli və azad iqtisadiyyatın, iqtisadi inkişafın milli-beynəlmiləl daxili və xarici liberalizm prinsiplərinin əlaqəsi, optimal nisbətdə reallaşdırılmasıdır.

Azərbaycan iqtisadçılarının o dövrdə nəşr olunan əsərlərinin təhlili göstərir ki, bu problem Azərbaycan üçün xarakterik olmuşdur. Ona görə də Avropa ölkələrinin milli iqtisadi modelləri ilə bərabər Şərq ölkələrinin, xüsusən, Çinin tarixi təcrübəsini öyrənməyə üstünlük verilirdi. Bu sahədə akad.Z.Ə.Səmədzadənin xidmətləri araşdırılmışdır.

Bu gün iqtisad elmi Azərbaycanın sosial-iqtisadi inkişafında əvvəllərdə olduğu kimi öz xidmətini göstərir. 90-cı illərdə ölkə iqtisadiyyatının

strukturunda dəyişikliklər, istehsalın səmərəliliyi, əmək ehtiyatları, demoqrafiya, məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi problemləri iqtisadçı alimlərimiz tərəfindən ciddi şəkildə əsaslandırılmış və bu tədqiqatların nəticələri müvafiq dövlət strukturları tərəfindən istifadə olunur. Deməli, Azərbaycanda milli və azad iqtisadiyyatın dirçəldilməsi ali bir məqsəd naminə meydana çıxan bütün problemlər dövlətin iqtisadi siyasətində öz əksini tapmışdır.

Bütün bu illərin nəticəsi olaraq 1995-1997-ci illərdə iqtisadiyyatın aşağı düşməsi dayanmış, ayrı-ayrı islahatların, sahələrin hesabına az da olsa ümumi, milli məhsulun artımı müşahidə olunmuşdur. Sonrakı mərhələlərdə isə inflyasiya minimuma enməklə, əmtəə və xidmətlərin dövriyyəsinin xeyli artması və investisiya qoyuluşunun kəskin çoxalması belə qənaətə gəlməyə əsas verir ki, artıq Azərbaycan yeni inkişaf dövrünə daxil olmuşdur.

**10. Azərbaycanın iqtisadi fikrində münasibətlərin nəzəri-fəlsəfi tərəflərinin qeyd edilməsi sosial-iqtisadi əhəmiyyət baxımından qiymətləndirilmişdir.**

Azərbaycan iqtisadçıları baş verən hadisələrin təkcə konkret praktik tərəflərini deyil, həm də nəzəri-fəlsəfi aspektlərini araşdırır və mühüm analitik nəticələrə nail olurlar. Artıq o vaxtdan etibarən belə bir nəticəni görmək mümkündür ki, mövcud iqtisadi sistem, səmərəlilik, rəqabət qabiliyyətlilik baxımından müasir tələblərə cavab vermir. İqtisadi fikirdə Sovet iqtisadi sisteminin inkar edilməsi yeni sistemə keçid haqqında konkret təkliflər səslənməsə də, ziddiyyətlərin mövcudluğu və onların həllinə cəhd edilməsi aşkar müşahidə edilirdi. Sosializmdə ziddiyyətlər, sosializmdə rəqabət, özünü maliyyələşdirmə və öz xərcini ödəmə, tam təsərrüfat hesabı, regional təsərrüfat hesabı, respublikanın təsərrüfat hesabı və digər bu kimi məsələlər tədqiq olunurdu. Artıq bunlar inzibati-amirlik metodlarından bazar iqtisadiyyatına keçidin iqtisadi ədəbiyyatda təhlilini ifadə edən faktlar hesab oluna bilər. Məlumdur ki, 80-ci illərdə yazılan əsərlər marksist metodologiyaya istinad edirdi. Bu metodologiyaya görə, istehsal istehlakdan üstün hesab olunurdu. Nəticədə ərzaq və çox işlənən istehlak şeylərinin çatışmazlığı bəzi iqtisadçıların bu problemə münasibətdə tənqidi mövqe tutmasına səbəb olmuşdu. İqtisadi təfəkkürdə dəyişikliklərin zəruriliyi labüd idi. Bu dəyişikliklər Azərbaycan iqtisadçılarının əsərlərində hiss olunurdu.

**11. Tədqiq olunan dövrdə iqtisadi fikirdə iqtisadiyyatın inkişaf strategiyasına dair mülahizələr sistemləşdirilmişdir.**

Bazar iqtisadiyyatına keçid dövründə Azərbaycanın müstəqilliyini

qorumaq və möhkəmləndirməkdən ötrü onun son məhsul istehsal etmək yolu ilə dünya bazarına çıxmaq imkanını təmin etmək diqqət mərkəzində idi. Azərbaycanın iqtisadi fikrində ölkənin iqtisadi inkişaf strategiyasını müəyyənləşdirərkən aşağıdakı istiqamətlərə diqqət yetirmək nəzərdə tutulurdu:

- uzun illər boyu ümumittifaq əmək bölgüsündə müvafiq olaraq iqtisadiyyatın birtərəfli, qeyri-təkmil və asılı struktura malik olması üzündən istər maşın və avadanlıq, istərsə də xammal istehsalı və satılması üzrə respublikanın xaricdən asılılığının minimuma endirilməsi, istehlak bazarını yerli istehsal hesabına doldurmaq məqsədi ilə iqtisadiyyatın bütün sahələrində dövlət səviyyəsində xüsusi proqramlar əsasında zəruri struktur dəyişikliklərinin həyata keçirilməsi;
- iqtisadiyyatın normal fəaliyyətinin təmin edilməsi üçün məqbul həddə dövlət sifarişlərinin tətbiq edilməsi;
- qiymətlərin dövlət tərəfindən tənzimlənməsi və islahatlar gedişində qiymətlərin tam liberallaşdırılmasının zəruriliyi;
- maliyyə-kredit siyasətinə yenidən baxılması, bu siyasətin beynəlxalq maliyyə və bank təşkilatlarının "tövsiyələrinə" uyğunlaşdırılması;
- Azərbaycanın xarici iqtisadi siyasətinin əsaslı surətdə yenidən qurulması;
- Azərbaycan iqtisadiyyatının transformasiyası, islahatlaşdırılması, o cümlədən bazar münasibətləri mexanizmi sisteminin əsası olan mülkiyyət çoxnövlülüyünə keçidin təmin edilməsi;
- ölkə iqtisadiyyatında geniş islahatların aparılmasında sosial gərginliyə yol verməmək, əhalinin sosial müdafiəsini təmin etmək üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi.

**12. Tədqiq olunan dövrdə Azərbaycanın iqtisadi fikrində dövlət amilinin məzmun elementləri funksiya baxımından dəyərləndirilmişdir.**

Dünya iqtisadiyyatında baş verən proseslər fəal müzakirə obyektləri kimi çıxış edən iqtisadi nəzəriyyənin dəyərlərinin yoxlanılmasından ibarətdir. Məlumdur ki, müasir iqtisad elmi bir çox funksiyaları olan yetkin elmi fənn kimi dəyərləndirilə bilər. Burada aşağıdakı funksiyalar xüsusi olaraq qeyd oluna bilər:

- müasir iqtisadiyyatın keçmişi və indiki vəziyyəti ilə əlaqədar obyektiv elmi biliklər;
- biznesin tənzimlənməsi və idarə olunmasında müasir iqtisadi biliklərdən istifadə olunması;
- iqtisad elmi ideoloji, sosial-psixoloji, maarifləndirici funksiyaları özündə üzvi vəhdət halında birləşdirir;
- iqtisad elmi təkcə insan cəmiyyətinin iqtisadi aləmini araşdırmır, eyni zamanda həmin aləmin formalaşdırılmasında iştirak edir;

- elm və iqtisadi aləm olduqca mürəkkəb, çoxcəhətli və çoxformalı məzmun və mahiyyət daşımaqdadır.

Nümunə üçün qeyd etmək olar ki, makroiqtisadiyyatla məşğul olanlar öz mühakimələrində iddia edirlər ki, agentlər iqtisadi hakimiyyətin hərəkətlərinə, hakimiyyət isə agentlərin fikirlərinə diqqət yetirirlər, həmin fikirlər hətta gələcəkdə qərarların qəbul edilməsinə təsir göstərir. Eyni zamanda iqtisad elminin insan cəmiyyətində böyük rol oynadığı da qəbul edilir. İqtisadçıların qabaqcadan görə bilmədikləri iqtisadi böhranlar iqtisad elminə, eyni zamanda da böyük zərbələr vurur, iqtisad elminin və nəzəriyyənin etibarlılığı, iqtisadi siyasətin məqsədyönlülüyü şübhə altına alınır.

İqtisad elminin tərkibində həmişə müxtəlif məktəblər olmuşdur. Bu məktəblər arasında mövcud fikir ayrılıqları siyasi və ideoloji rəng almışdır. Nəzəri mühakimələrdə fikir ayrılıqlarına baxmayaraq, 2000-ci illərin əvvəllərində cəmiyyətdə baş verən makroiqtisadi tarazlıq eyni zamanda iqtisad elminin nüfuzunun bir qədər bərpa olunmasına səbəb oldu. Lakin, indiki dövrdə yenidən iqtisad elminin nəzəri mühakimələrində müəyyən düzəlişlərə ehtiyac yaranıb, həmin ideya dəyişiklikləri və yenilikləri ilk növbədə bazarın səmərəliliyi və rasionallığı ilə əlaqədardır.

**13. İqtisadi fikrin inkişafının "milli ideya" prinsipi qiymətləndirilmişdir.**

İqtisadi fikrin inkişafı cəmiyyətin tərəqqisinin birbaşa nəticəsidir. İqtisadçı alimlərin tədqiqatları iqtisadi reallıqları və iqtisadi idarəetmə prinsiplərinin inkişaf yollarını göstərmişdir. Tədqiqatlar əsasən ölkənin durumundan asılıdır. Bu baxımdan Azərbaycan dövləti istənilən sahədə (iqtisadiyyat, siyasət, sosial sahədə), müvəffəqiyyətlərə, birliyə doğru bir sıra tədbirlər həyata keçirir. Bu birliyin əsasında isə milli ideya dayanır.

Milli ideyanın təşəkkülü Azərbaycan xalqının əsrlər boyu azadlıq və müstəqillik uğrunda apardığı mübarizənin nəticəsidir. Milli ideyanın mühüm tərkib hissəsi iqtisadi ideyadır. Milli ideyanın (o cümlədən, iqtisadi ideyanın) həyata keçirilməsi üçün hazırda hakim ideologiya kimi qəbul edilən azərbaycançılıq ideologiyası iqtisad elminin və iqtisadçıların əsas vəzifələrini müəyyən edir. Aparılan islahatlar bunun ifadəsidir.

Müasir mərhələdə milliləşdirmə və əks milliləşdirmə inkişafın mühüm amillərdən biridir. Bir çox məsələlərdə dövlət mexanizminə etibar etmək çox vacibdir.

Təbii ki, iqtisadiyyatın liberallaşması prosesi müasir mərhələdə daha çox qlobal xarakter kəsb etmişdir. Bazar tənzimləməsi mexanizmlərinin təsiri üçün geniş fəaliyyət meydanı açılır. Dövlətin iqtisadiyyata inzibati formalarında müdaxiləsi azalır. Təsərrüfat və mülki qanunvericiliyin qəbul edilməsi yolu ilə rəqabət mühitinin yaradılması və dəstəklənməsi, yeni

özəl müəssisələrin yaradılmasının sadələşdirilməsi, orta və kiçik biznesin dəstəklənməsi dövlətin əsas funksiyasına çevrilir.

Milli iqtisadiyyatın liberallaşdırılması prosesi onun artım səviyyəsi ilə sıx bağlıdır. İqtisadiyyat inkişaf etdikcə, sabit iqtisadi sistemin formalaşmasının əsas amilləri dəyişdikcə şəffaflıq, həm daxili iqtisadi liberallaşma strategiyasının (buraya milli iqtisadiyyatlar çərçivəsində dövlət müəssisələrinin özəlləşdirilməsi, sərbəst qiymətlər və gəlirlər, faiz dərəcələri, kreditlərin verilməsi şərtlərinin genişləndirilməsi) həyata keçirilməsi, həm də xarici iqtisadi fəaliyyətin liberallaşmasının güclənməsi baş verəcəkdir. Sonuncu amil əmtəə və xidmətlərin, kapitalların və informasiyanın maneəsiz beynəlxalq hərəkətinin genişlənməsinə kömək edəcəkdir. Eyni zamanda, ölkəmiz Dünya Ticarət Təşkilatına daxil olarkən bu aspekt çox mühüm amil olacaq, çünki dünyada əmtəə və xidmətlər ticarətinin liberallaşdırılması gömrük maneələrinin, ölkələr arasında ticarətdə kəmiyyət məhdudiyyətlərinin aradan qaldırılması meylində təzahür edir.

Araşdırmalar göstərir ki, Azərbaycanda dayanıqlı inkişaf məqsədlərinə nail olunmasında elm və tədqiqatların rolu artır. Dayanıqlı inkişaf məqsədlərinin əsas hədəfləri ölkədə aparılan iqtisadi tədqiqatların mövzusuna çevrilmişdir.

**Dissertasiya işinin əsas müddəaları, əldə olunan nəticə və təkliflər dərc olunmuş aşağıdakı işlərdə öz əksini tapmışdır:**


1. Fətəliyeva A.X. M.H.Baharlının “Azərbaycan” əsərlərinə iqtisadi-coğrafi məsələləri. AMEA-nın Xəbərləri İqtisadiyyat seriyası. 2002-ci il, 0,5 ç.v.

2. Fətəliyeva A.X. “N.Tusinin iqtisadi fikirləri və müasir dövr”. Az.İn. N.Tusinin 800 illiyinə həsr edilmiş elmi-praktiki konfrans 02-2003 il, 0,2 ç.v.

3. Fətəliyeva A.X. “Dövlətin ali məqsədi”. (2004-cü il tezis, 26 may “Azərbaycan respublikası milli iqtisadiyyatının inkişaf etdirilməsi istiqamətləri” elmi-praktiki konfrans), 0,2 ç.v

4. Fətəliyeva A.X. “İstehlak mədəniyyəti”. “Himayədar” sosial-iqtisadi jurnal, №14,2005 il, 0,5 ç.v.

5. Fətəliyeva A.X. “80-90-cı illərdə Azərbaycanda iqtisadi fikrin inkişafı”. AMEA-nın məqalələr toplusu, 2006-cı il, IV buraxılış, 0,5 ç.v.

6. Fətəliyeva A.X. “Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi tarixindən” AMEA-nın elmi əsərləri, III buraxılış, 2008-ci il, 0,5 ç.v.

7. Fətəliyeva A.X. “Həsən bəy Zərdabinin iqtisadi görüşləri”. (Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması; təhlil və nəticələr)” Milli inkişaf modelinin formalaşması problemləri” Z.Səmədzadənin 70 illiyinə həsr olunmuş elmi praktiki konfrans), 2010 il, 0,2 ç.v.

8. Fətəliyeva A.X. “Şərqin sosial-iqtisadi inkişaf modelinin formalaşmasında Azərbaycanın yeri”. “Müasir şərqin sosial-iqtisadi inkişafı və

Azərbaycan modeli. Ümumi respublika elmi-nəzəri konfransı). Bakı, 2010, 17-18 mart , 0,2 ç.v.

9. Fətəliyeva A.X. “Azərbaycanın milli iqtisadi fikir tarixində Şərq və Qərb elementlərinin sintezi”. AMEA-nın Xəbərləri İqtisadiyyat seriyası, 2010, 01, 0,5 ç.v.

10. Fətəliyeva A.X. “Qloballaşmanın tarixi, iqtisadi səbəbləri haqqında. “Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya” İqtisadiyyat və Beynəlxalq konqres, “III Beynəlxalq konqres”. Bakı, 2010, 15-17 oktyabr, 0,2 ç.v.

11. Фаталиева А.Х. “Особенности развития Азербайджанской экономической мысли в 80-годы” (Международной научно-практическая конференция), “II Беларусский Инновационный форм”, 18-19 ноября 2010г. (Минск, республика Беларус), 0,5 п.л.

12. Fətəliyeva A.X. “N.Tusi əmək, əmək bölgüsü və əmək məhsuldarlığı haqqında”. AMEA-nın Xəbərləri İqtisadiyyat seriyası, Bakı, 2011, № 01, 0,5 ç.v.

13. Fətəliyeva A.X. “Azərbaycan mütəfəkkirlərinin təşkilatı-iqtisadi münasibətlərə dair baxışları”. AMEA-nın elmi əsərləri, 2011-ci il, №02, 0,5 ç.v

14. Фаталиева А.Х. «Необходимые условия совершенствования «содержания» в истории экономической мысли”. “Вестник Экономической интеграции научно-практический журнал», №11-12 (56-57), 2012, 0,5 ç.v

15. Fətəliyeva A.X. “Müasir dövrdə iqtisadi fikrin formalaşmasına dair.” “Azərbaycan iqtisadiyyatının aktual problemləri mövzusunda elmi-praktiki konfransın materialları”? 2013, 0,2 ç.v.

16. Fətəliyeva A.X. “Şərqin sosial-iqtisadi inkişaf modelinin formalaşmasında Azərbaycanın yeri. “Dövlətin regional siyasətinin reallaşmasında Aran iqtisadi rayonun rolu: reallıqlar və perspektiv inkişaf. Respublika Elmi-praktiki konfransının materialları 6-7 dekabr, 2013, 0,2 ç.v

17. Fətəliyeva A.X. “İqtisad elminin inkişafında AMEA-nın İqtisadiyyat İnstitutunun rolu. “AMEA-nin Elmi əsərləri”, № 3, 2014, 0,5 ç.v

18. Fətəliyeva A.X., Yüzbaşiyeva G.Z. “Heydər Əliyevin iqtisadi fikirləri”. “Regional iqtisadi siyasət və kooperasiya münasibətlərinin inkişafı” mövzusunda Beynəlxalq elmi-praktiki konfrans. Bakı, 22 noyabr, 2015, 0,2 ç.v.

19. Fətəliyeva A.X. “Rusiyada 1990-cı illərdə həyata keçirilən iqtisadi islahatlar və onların inkişaf meyilləri”. AMEA-nın Xəbərləri İqtisadiyyat seriyası elmi-praktiki jurnal, elmi-praktiki jurnal, Bakı, 2015-3 ( may-iyun),0,5 ç.v

**Фаталиева Айгюн Хейрулла кызы.**

## Развитие экономической мысли в 80-90-х годах XX века

## РЕЗЮМЕ

Во введении диссертации показана актуальность темы исследования, степенть изученности проблемы, предмет и объект исследования, цель и задачи поставленной проблемы, научная новизна выбранного исследования.

В первой главе «Теоретико-методологические основы исследования национальной экономической мысли» рассматриваются основы формирования и развития экономической мысли, исследованы специфические черты и особенности развития экономической науки и истории экономической мысли в Азербайджане.

Во второй главе «Основные направления развития и сущность экономических исследований 80-90-х годов XX века» исследованы и оценены постановка вопроса теоретических проблем в экономической литературе постсоветского пространства; выявлены академические направления в экономической литературе, влияющие на развитие экономической мысли в Азербайджане в 80-90-х годах XX века.

В третьей главе «Основные развития национальной экономической мысли и необходимость появления новой парадигмы» выявлены факторы, влияющие на совершенствование содержания экономической мысли Азербайджана; показаны будущие перспективы развития страны, нашедшие отражение в национальной экономической мысли.

**Aygun Kheyrulla Fataliyeva**

## 80-90-ies of the XX century, the development of economic thought


## SUMMARY

Development of an economic thought in the 80-90th years of the 20th century.

In introduction of the thesis relevance of a subject of a research, study degree of the problem is shown, a subject and an object of a research, the purpose and the task of the set problem, scientific novelty of the selected research.

In chapter 1 "Teoretical and metodologic bases of a research of a national economic thought" the basics of formation and development of an economic thought are covered; peculiar features and bases of development of economic science and history of an economic thought in Azerbaijan are probed.

In chapter 2 "The main directions of development and an entity of economic researches of the 80-90th years of the 20th century" are probed and evaluated formulation of the question of theoretical problems in economic literature of the former Soviet Union; the academic directions in economic literature influencing development of an economic thought in Azerbaijan in the 80-90th years of the XX century are revealed.

In a chapter 3 "Lines of development of a national economic thought and need of appearance of a new paradigm" are revealed the factors influencing enhancement of maintenance of an economic thought of Azerbaijan; future perspectives of development of the country which found reflection in a national economic thought are shown.

Avtoreferat   AMEA-nın kompüter mərkəzində yığılmışdır.

Ünvan: Hüseyn Cavid prospekti , 115